

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 52-53 (7457-7458) ❖ 1933-cü ildən nəşr olunur ❖ Çərşənbə, 29 noyabr 2017-ci il. ❖ Qiyməti 40 qəpik


## Prezident İLHAM ƏLİYEV: "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir və bərpa olunmalıdır"

***XXI əsrdə separatizm, təcavüzkar separatizm qəbul edilə bilməz. Separatizmin bütün formaları pislənməlidir və separatizmin bütün təzahürlərinə vahid yanaşma tətbiq edilməlidir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir və bərpa olunmalıdır.***

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

*24 noyabr*

***Belçika Krallığında işgüzar səfərdə olan Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə Şərq Tərəfdaşlığı Sammitində iştirak edib.***

***Dövlətimizin başçısı Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasında nitq söyləyib.***

*23 noyabr*

***Brüsseldə Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Petro Poroşenkonun görüşü olub.***

***Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.***

* * *

***Prezident İlham Əliyev və NATO-nun baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər.***

* * *

***Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun mənzil-qərargahında NATO-nun baş katibi Yens Stoltenberqin görüşü olub.***

***Söhbət zamanı Azərbaycanın Ceyrançöl ərazisində NATO-nun minatəmizləmə əməliyyatlarına verdiyi dəstəkdən məmnunluq ifadə olunub. Əfqanıstana daşınan yüklər baxımından Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti vurğulanıb.***

*20 noyabr*

***Prezident İlham Əliyev FIFA-nın prezidenti Canni İnfantinonu və təşkilatın baş katibini qəbul edib.***

***Sonra Canni İnfantino FIFA-nın xatirə hədiyyələrini dövlətimizin başçısına təqdim edib.***

## Uğurlu iqtisadi inkişaf müstəqil siyasətin təməlidir




Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə noyabrın 24-də Şərq Tərəfdaşlığı Sammitində iştirak edib.

Prezident İlham Əliyev Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasında nitq söyləyib.

Sammitdə birgə bəyannamə qəbul olunub.

Birgə Bəyannamədə Şərq Tərəfdaşlığının bütün dövlətlərinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi birmənalı olaraq bir daha dəstəklənib. Xüsusi vurğulanmalıdır ki, Birgə Bəyannamədə Avropa İttifaqının Xarici Siyasət və Təhlükəsizlik Qlobal Strategiyasına istinad edilib. Xatırladaq ki, bu Qlobal Strategiyada Avropa İttifaqının üzv və qonşu dövlətlərinin ərazi bütövlüyü beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində qeyd edilib.

Birgə Bəyannamənin digər bəndində Şərq Tərəfdaşlığı ölkələrinin ərazilərində baş verən bütün münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması vurğulanıb.

Birgə Bəyannamədə Azərbaycan Respublikasının fəal iştirakı ilə həyata keçirilən nəqliyyat və enerji layihələrinə xüsusi dəstək qeyd edilib, təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev olan "Cənub Qaz Dəhlizi" layihəsinin Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Sənəddə Azərbaycan Respublikasının iştirakı ilə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri ilə həyata keçirilən ikitərəfli və çoxtərəfli layihələrə xüsusi diqqət yetirilib. Gələcək illər üçün Şərq Tərəfdaşlığı ölkələri ilə həyata keçiriləcək birgə əməkdaşlıq istiqamətləri sırasında Azərbaycan Respublikasının Avropa İttifaqı ilə vizasız gediş-gəliş sənədlərinin işlənməsi xüsusi yer alıb.

Həmçinin sənəddə Azərbaycanın iştirak etdiyi digər beynəlxalq əməkdaşlıq sahələri də qeyd edilib.

Bir sıra mütəxəssislərin fikrincə, Brüssel Sammitində qəbul edilən Birgə Bəyannamə mahiyyətinə görə beynəlxalq hüquqa əsaslanan və strateji əhəmiyyət daşıyan sənəd kimi qiymətləndirilməlidir.

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 47-ci kitabı çapdan çıxıb




Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 47-ci kitabına daxil olan materiallar 2011-ci ilin iyulundan sentyabr ayınadək olan dövrü əhatə edir.

Bu cilddə Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Polşa, Monteneqro prezidentləri, Türkiyənin Baş naziri ilə görüşlərinə, eləcə də Rusiya Federasiyasına işgüzar səfəri zamanı apardığı danışıqlara, imzalanan sənədlərə və mətbuata bəyanatlarına dair materiallar toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Nəşrin bu cildində Prezident İlham Əliyevin Xızı, Siyəzən, Şabran, Qobustan, Şamaxı, Xaçmaz, Quba və Qusar rayonlarına səfərlərinə, ictimaiyyət nümayəndələri ilə görüşlərinə, Bakının şəhərətrafı qəsəbələrində aparılan abadlıq işləri, ölkənin bir sıra orta məktəb binalarında əsaslı təmir və yenidənqurma işləri ilə tanışlığına dair materiallar əksini tapıb.